**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FUAT ORHAN BAKIŞLI**

# YENİYETMƏLƏRDƏ MƏNƏVİ TƏRBİYƏNİN DİAQNOSTİKASI ÜZRƏ İŞİN PEDAQOJİ ƏSASLARI

**5804.01 -** ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı – 2017**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov**,
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəsmi opponentlər**: **Fərrux Abbas oğlu Rüstəmov**,
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar elm xadimi*

**Rəsul Sabir oğlu Əliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Aparıçı təşkilat**: Bakı Dövlət Universitetinin
Pedaqogika kafedrası

Müdafiə 6 iyun 2017-ci il tarixində saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD 02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat «____»________2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **İsa Namaz oğlu İsmayılov,**
*pedaqogika üzrə elmlər doktoru,*
*dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı**. Ümumi təhsil sistemində xüsusi diqqət yetirilən məsələlərdən biri də tərbiyə problemi və onun səmərəliliyi və keyfiyyətidir. Tədris ili ərzində tərbiyə işi necə yerinə yetirilib, bu proses hansı səviyyədə səmərəli olub? Pedaqoji kollektivləri, təhsil müəssisəsi rəhbərləri marağındadırlar ki, təlimdə olduğu kimi şagirdlərini tərbiyəlilik, o cümlədən mənəvi tərbiyəlilik səviyyəsində də keyfiyyətli nəticələr qazanılsın. Buna necə nail olunur? Nəticələr, göstəricilər necə müəyyənləşdirilir? Təbii ki, pedaqoji diaqnostika ilə. Elə fərz edilir ki, diaqnostika tibb elminin, diaqnoz qoymaq da həkimin işidir. Doğrudur ki, tibbdə diaqnostika vacibdir. Bakı şəhərində, Azərbaycanın rayon və şəhərlərində diaqnostika mərkəzləri inşa olunub istifadəyə verilib. Onların imkanlarından müalicə məqsədilə səmərəli istifadə edilir. Bu, bir həqiqətdir ki, xəstəliyin əlamətləri vaxtında və düzgün müəyyənləşdirilərsə, başvermə səbəbləri aşkara çıxarılarsa, diaqnoz qoymaq işi asanlaşar və xəstəlik müalicəsini tapar. Düzgün qoyulmayan diaqnozun nəinki xəstəyə köməyi çatmır, hətta bu, fəsadlar törədər.

Diaqnostikaya yalnız tibb sahəsində müraciət edilmir. Başqa sahələrdə də, məsələn, təhsildə də ondan faydalanırlar. K.D.Uşinski "İnsan tərbiyənin predmeti kimi» əsərində yazmışdır: «Əgər pedaqogika insanı hər cəhətdən tərbiyə etmək istəyirsə, o, əvvəlcə insanı hər cəhətdən də öyrənilməlidir". K.D.Uşinskinin qənaətləri pedaqoji prosesdə diaqnostikanın necə böyük əhəmiyyət daşıdığını göstərir.

Diaqnostika yunan sözüdür, tərcümədə «anlamaq», «müəyyənləşdirmək», «müəyyən etmək qabiliyyəti» deməkdir. Bu söz «dia» (şəffaf) və «qnozis» (bilik) sözlərindən götürülüb.

Pedaqoji diaqnostikanı pedaqoji tədqiqatın metodu kimi də nəzərdən keçirmək mümkündür.

Pedaqoji diaqnostikanın bir çox istiqamətləri vardır. Təhsil sistemində tərbiyəliliyin, xüsusən mənəvi tərbiyəliliyin diaqnostikasından geniş şəkildə istifadə edilir. Biz tədqiqatımızda mənəvi tərbiyəliliyin diaqnostikasını diqqət mərkəzinə gətiririk.

Məktəblilər, o cümlədən yeniyetmələr fərdi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. V-IX siniflərdə təhsil alan şagirdlərin bəziləri coşqun, mütəhərrik; başqa qismi sakit, ləng olur. Utancaq, qaradinməz, qətiyyətli və qətiyyətsiz, cəsarətli və cəsarətsiz yeniyetmələrə də rast gəlinir. Nümunəvi davranışlı olanlar da, davranışı qüsurlu olanlar, hətta "çətin", yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələr də var.

Bütün bunlar V-IX sinif şagirdlərinə eyni tələblərlə deyil, onların fərdi, yaş və cinsi xüsusiyyətlərinə görə yanaşmağı, onlarla məqsədyönlü iş aparmağı tələb edir.

Ailə ilə yanaşı ümumtəhsil məktəbi şagirdlərin, o cümlədən yeniyetmələrin müsbət mənəvi keyfiyyətlərinin, mənəviyyatının inkişafı qayğısına qalmalıdırlar. Bu sahədə məktəbin üzərinə mühüm vəzifələr düşür. Böyüyən nəslin əxlaqının saflaşdırılmasına, daxili aləminin zənginləşdirilməsinə, onların milli dəyərlərə yiyələnmələrinə dövlət səviyyəsində diqqət yetirilir.

Ümummilli Lider Heydər Əliyevin kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənc nəslin Vətənin ləyaqətli oğul və qızları kimi böyümələrini diqqət mərkəzində saxlayır. Cənab İlham Əliyev bu xüsusda deyir: “Müasirlik, yenilik və eyni zamanda, milli dəyərlərə, milli köklərə bağlılıq – bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin - zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq”.

Yeniyetmələrin daxili aləmi mürəkkəb, ziddiyyətli, hətta deyərdik ki, ixtilaflıdır. Bu səbəbdən də onların mənəvi tərbiyəlilik səviyyəsinə asanlıqla bələd olmaq çətindir. Bəzən müəllimlərə elə gəlir ki, öz yetirmələrini yaxşı tanıyırlar. Sonra məlum olur ki, məktəbli haqqında bildikləri natamamdır. Məktəblinin mənəvi tərbiyəlilik səviyyəsini onu müşahidə etməklə, onunla fərdi iş aparmaqla, həm də pedaqoji münasibətlər sistemində, müəyyən sosial və tərbiyə situasiyasında öyrənməklə nail olmaq mümkündür. Pedaqoji diaqnostika bu sahədə ümumtəhsil məktəbinin köməyinə gəlir.

Pedaqoji diaqnostika pedaqoji fəaliyyətin önəmli tərkib hissəsi kimi təşəkkül tapmaqdadır.

Hazırda tələb belədir ki, məktəblər öz fəaliyyətlərini yeni pedaqoji təfəkkür əsasında qursunlar. Şəxsiyyətyönlü təhsil, rəqabətəqabil şəxsiyyətlər tərbiyələndirmək vacibdir. Milli adət və ənənələri, milli, ümumbəşəri və islam dəyərlərini yüksək qiymətləndirən, mədəniyyətə və savada, geniş dünyagörüşünə, müstəqillik, təşəbbüskarlıq, təşkilatçılıq qabiliyyətlərinə yiyələnmiş şagirdləri, o cümlədən yeniyetmələri formalaşdırmaq məktəblərin fəaliyyətində mühüm yer tutur.

Pedaqoji diaqnostika zamanı haqqında danışılan məsələlərə fikir verilməli, yeniyetmələrin bacarıqları, imkanları, şagirdlərlə təlim və tərbiyə işlərinin səmərəliliyi, qüsurlar, onların düzəldilməsi yolları, bütün bunlarla yanaşı, fənn müəllimlərinin, sinif və məktəb rəhbərlərinin, gənclər təşkilatının, uşaq birliyinin fəaliyyətinin nəticələri müəyyənləşdirilməli, nəzarətdə saxlanılmalı və obyektiv qiymətləndirilməlidir.

Müasir mərhələdə alimlər və praktik müəllimlər pedaqoji diaqnostikaya təlim və tərbiyə prosesinin optimallaşmasını təmin edən amil kimi yanaşırlar. Pedaqoji diaqnostika təhsil subyektlərinin inkişafının, təhsilinin və tərbiyəsinin, o cümlədən mənəvi tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi mexanizmidir.

Digər ölkələrlə müqayisədə Azərbaycan Respublikasında pedaqoji diaqnostika problemi nisbətən az tədqiq olunmuşdur. Azərbaycanda «Pedaqogika» dərsliklərində, kitablarda, müxtəlif məqalələrdə problemin bəzi istiqamətləri araşdırılmışdır. Belə ki, T.B.Eminlinin elmlər doktoru proqramı üzrə yazdığı dissertasiyasını və monoqrafiyasını, P.B.Əliyev və H.H.Əhmədovun kitabını, L.N.Qasımova və R.M.Mahmudovanın «Pedaqogika» dərsliyini, Ə.X.Paşayev və F.A.Rüstəmovun, A.O.Mehrabovun monoqrafiyalarını qeyd edə bilərik. Ə.Ə.Əlizadə, L.Ş.Əmrahlı, M.Ə.Həmzəyev, L.F.Burlaçuk və B.M.Bleyxer, C.Kettell, F.Qalton, İ.K.Qureviç, İ.Ə.Məmmədov psixoloji diaqnostika ilə üzrə tədqiqat aparmışlar.

Digər ölkələrdə pedaqoji diaqnostika problemə M.E.Berşadski, N.M.Brıtko, K.İnqenkamp, E.A.Karpova, A.A.Mayorov, E.A.Mixaylıçev, A.A.Yarulov və başqaları toxunmuşlar.

Mənəvi tərbiyənin diaqnostikanın ümumtəhsil məktəblərinin, pedaqoji kollektiv üzvlərinin və müəllimlərin fəaliyyətində, yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsində aktuallığını nəzərə alaraq, dissertasiyamız üçün aşağıdakı mövzu seçildi: "Yeniyetmələrdə mənəvi tərbiyənin diaqnostikası üzrə işin pedaqoji əsasları".

**Tədqiqatın obyekti** yeniyetmələrin mənəvi tərbiyəliliyinin diaqnostikası üzrə fəaliyyətdir.

**Tədqiqatın predmetini** ümumtəhsil məktəblərində V-IX sinif şagirdlərinin mənəvi tərbiyəliliyinin diaqnostikası üzrə işin pedaqoji əsasları təşkil edir.

**Tədqiqatın məqsədi y**eniyetmələrin mənəvi tərbiyəliliyinin diaqnostikası üzrə işin pedaqoji əsaslarını müəyyənləşdirmək**,** nəzəri və praktik cəhətdən əsaslandırmaq, yeniyetmələrdə mənəvi inkişafın və mənəvi mədəniyyətinin formalaşdırılmasına pedaqoji diaqnostikanın təsirini eksperiment vasitəsilə yoxlamaqdır.

**Tədqiqatın fərziyyəsi.** Ümumtəhsil məktəblərində təhsil-tərbiyə prosesi yeniyetmələrin müsbət mənəvi keyfiyyətlərinin inkişafına imkan verir, o şərtlə ki:

-yeniyetməlik yaşında olan şagirdlərin mənəvi inkişafının xüsusiyyətləri düzgün müəyyənləşdirilərsə;

-təhsil-tərbiyə prosesinin subyektlərinin mənəvi inkişafının meyarları və göstəriciləri əsaslandırılarsa;

-müsbət mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi üzrə yeniyetmə oğlan və qızlarla təlim xarakterli və sinifdənxaric işin məqsəd və vəzifələri, məzmunu, prinsipləri və metodları düzgün müəyyənləşdirilərsə və V-IX sinif şagirdlərinin mənəvi tərbiyəlilik səviyyəsinin diaqnostikası həyata keçirilib nəticələr qiymətləndirilərsə;

- mənəvi tərbiyə üzrə yeniyetmə oğlan və qızlarla tədbirlərin əsas istiqamətləri aydın təsəvvür edilərsə; məqsədyönlü, sistemli və ardıcıl işlər aparılarsa;

Tədqiqatın məqsədinə, obyektinə, predmetinə və fərziyyəsinə əsasən **vəzifələr** müəyyənləşdirilmişdir:

1. Yeniyetmələrin mənəvi tərbiyə prosesinin diaqnostikasının nəzəri əsaslarına aydınlıq gətirmək;
2. Pedaqoji diaqnostikanın təşəkkülü və inkişafını diqqət mərkəzində saxlamaq.
3. Mənəvi tərbiyənin mahiyyətini, məqsəd və vəzifələrini, məzmununu, əsas istiqamətlərini müəyyənləşdirmək.
4. Yeniyetmələrin mənəvi tərbiyəsi üzrə işdə istifadə olunan prinsip və metodları nəzərdən keçirmək.
5. Yeniyetmələrin mənəvi tərbiyəliliyinin meyarlarına münasibət bildirmək.
6. Yeniyetmələrin mənəvi tərbiyəliliyi diaqnostikasının təcrübi məsələlərini aydınlaşdırmaq.
7. Təlim prosesində yeniyetmələrin mənəvi tərbiyəsi üzrə işin təşkili və mənəvi tərbiyəliliyinin diaqnostikası məsələlərini araşdırmaq.
8. Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin mənəvi tərbiyəsi üzrə işin təşkili və mənəvi tərbiyəliliyinin diaqnostikası barədə aydın təsəvvür yaratmaq.
9. Eksperimentin təşkili, aparılması və nəticələri barədə məlumat vermək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmalar zamanı istifadə olunan **tədqiqat metodlar:** nəzəri təhlil və tərkib; pedaqoji müşahidə; pedaqoji müsahibə; sənədlərin öyrənilməsi; riyazi-statistik metodlar; pedaqoji eksperiment.

Tədqiqat zamanı eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə olunmuşdur. Eksperiment 2013-2017-ci illərdə aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Yeniyetmələrdə mənəvi tərbiyənin diaqnostikası üzrə işin pedaqoji əsaslarını müəyyənləşdirməkdən və bu problem üzrə işin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Problemlə bağlı iş sistemi, əsas elmi ideyalar, tədqiqatın nəticələri yeniyetmələr arasında mənəvi tərbiyə üzrə işlərin; V-IX sinif şagirdlərinin mənəvi tərbiyəlilik səviyyəsinin diaqnostikasının səmərəli şəkildə aparılması və nəticələrin obyektiv qiymətləndirilməsi sahəsində fənn müəllimlərinə, sinif və məktəb rəhbərlərinə, məktəb gənclər təşkilatına, direktorların tərbiyə işləri üzrə müavinlərinə, məktəb psixoloquna, kitabxanaçıya, uşaq birliyi rəhbərinə öz köməyini göstərəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Yeniyetmələr mənəvi tərbiyəsi, mənəvi inkişafı üzrə aparılan işin mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, xüsusiyyətləri, diaqnostik göstəriciləri, həmin əsasda V-IV sinif şagirdlərində mənəvi tərbiyəliliyin yüksəldilməsi və mənəvi mədəniyyətinin formalaşdırılmasının istiqamətləri müəyyənləşdirilmişdir. Dissertasiyada irəli sürülən elmi ideyalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, yeniyetmələrin mənəvi tərbiyəliliyi üçün səciyyəvi sayıla biləcək başlıca keyfiyyətlərin inkişaf etdirilməsini elmi əsaslar üzərində qurmağa kömək edəcəkdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Yeniyetmələrin mənəvi inkişafının, mənəvi tərbiyəliliyinin səviyyəsi onlar arasında mənəvi keyfiyyətlərə dair məqsədyönlü, sistemli və fasiləsiz işin aparılmasından, mənəvi maariflənmənin səviyyəsindən çox asılıdır.

2. Təlim prosesində - Azərbaycan tarixi, İnsan və cəmiyyət, həmçinin Ədəbiyyat fənləri üzrə dərslərdə V-IX sinif şagirdləri ilə etik normalar, davranış qaydaları, mədəni adətlər və müsbət mənəvi keyfiyyətlərlə əlaqədar aparılan işlər səmərəli nəticələnir.

3. Mənəvi inkişaf, mənəvi təkmilləşmə, mənəvi kamillik, əxlaqın saflaşdırılması üzrə təlim prosesində aparılan işlərin sinifdənxaric tədbirlərdə davam etdirilməsi vacibdir.

4. Fənn müəllimlərinin fəaliyyəti o zaman səmərəli olur ki, onlar mənəvi keyfiyyətlərin tərbiyə olunması və inkişaf etdirilməsi imkanlardan həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə faydalanmağı bacarsınlar. Bu yönümdə uşaq birliyi və gənclər təşkilatlarının, kitabxanaçının, tərbiyə işləri üzrə direktor müavininin, sinif və məktəb rəhbərlərinin, məktəb psixoloqunun, köməyi lazım bilinir.

5. Mənəvi tərbiyəlilik səviyyəsinin pedaqoji diaqnostikaya cəlb edilməsi və nəticələrin qiymətləndirilməsi mənəvi tərbiyə üzrə aparılan işlərin səviyyəsini artırır, keyfiyyətə nail olunur.

**Tədqiqatın aprobasiyası.** Təklif edilən iş sistemi Bakı şəhərinin 9, Zaqatala şəhərinin 7, Gəncə şəhərinin 5 nömrəli məktəblərində tətbiq edilmişdir. Dissertasiyanın problemi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 və xarici ölkədə 1 məqalə nəşr olunmuşdur. İddiaçı eyni zamanda beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin mətnləri nəşr edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 8 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

**I fəsil "Yeniyetmələrin mənəvi tərbiyə prosesinin diaqnostikasının nəzəri əsasları"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəslində ***"Pedaqoji diaqnostikanın təşəkkülü və inkişafı"*** məsələləri nəzərdən keçirilir. Pedaqoji diaqnostikanın tətbiqi təsadüfi deyildir. Yeni pedaqoji təfəkkür şəraitində onsuz təhsil və tərbiyənin, o cümlədən mənəvi tərbiyənin səmərəlilik göstəricilərini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Son illərdə xüsusən ümumtəhsil məktəbində pedaqoji diaqnostika özünə möhkəm yer alıb. Belə ki:

1. Diaqnostik metodikalar (testlər və sorğular) təhsilin və tərbiyənin nəticələrinə nəzarət təcrübəsinə və təhsil müəssisəsinin fəaliyyətinin səmərəliliyinin monitorinqinə daxil olmuşdur.
2. Pedaqoji diaqnostika vasitəsilə müqayisəli beynəlxalq tədqiqatlar və regionlarda təhsilin keyfiyyətinin təhsil nazirliyi tərəfindən keyfiyyətinin yoxlanışı aparılır.
3. Ötən əsrin sonuncu onilliyində "Teletestinq" sistemi mövcuddur.
4. Abituriyentlərin mərkəzləşdirilmiş testləşdirilməsi həyata keçirilir və vahid dövlət imtahanının test forması daim təkmilləşdirilir.
5. Tələbələrin sistemli test nəzarətinə əsaslanan biliklərinə nəzarətin reytinq sistemi tətbiq olunur.
6. Təhsil müəssisələri təhsil fəaliyyətinin monitorinq sistemini tətbiq edirlər. İyirminci yüzilliyin 30-cu illərində ittifaqda daxil olduğumuz vaxtlarda pedaqoji diaqnostikanın nəzəri və metodik problemlərinin işlənməsini dayandıran antidiaqnostik təhsil praktikası reallaşıb. Bundan başqa, həm də pedaqoji diaqnostika təfəkkürünün və diaqnostik əsasda pedaqoji fəaliyyətin inkişafı məhdudlaşdırılıb.

Pedaqoqlar pedaqoji diaqnostikanın səmərəli yollarını müəyyənləşdirərək, diaqnostikanın mühüm problemlərini nəzərdən keçirmişlər. Bu dövrün səciyyəvi əlamətlərini onunla bağlıdır ki, pedaqoji diaqnostika, tərbiyənin, o cümlədən mənəvi tərbiyəliliyin səviyyəsinin diaqnostikası üzrə elmitədqiqatlar aparılmış və bu tədqiqatların miqyası genişlənmişdir. Bundan başqa, tədqiqatların eksperimental metodların, pedaqoji texnologiyaların pedaqogikaya tətbiqi özünə yer almışdır.

Pedaqoji prosesin komponentləri, yəni müəllim, təhsil alan, yeniyetmə, pedaqoji fəaliyyətin məzmunu, metodları və nəticələri, pedaqoji prosesin qanunauyğunluqları pedaqoji diaqnostikanın obyektləridir.

Pedaqoji diaqnostikanın vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək olar:

XX əsrin ikinci yarısı - əsrin sonunda pedaqoji diaqnostikanın nəzəriyyəsinin sistemli şəkildə işlənib hazırlanması dövrü kimi diqqət mərkəzinə gəlir. Tarixi nailiyyətlərin və səhvlərin hesaba alınması əsasında hazırkı dövrdə pedaqoji diaqnostikanın çoxcəhətli nəzəriyyəsinin, metodologiyasının və texnologiyasının yaradılması istiqamətində təşəbbüslər göstərilir.

Birinci fəslin ikinci yarımfəsli "***Mənəvi tərbiyə: mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, əsas istiqamətləri***" adlanır. Əsərdə göstərilir ki, pedaqogika, psixologiya, fəlsəfə, sosiologiya və başqa dərsliklərdə və ədəbiyyatlarda "mənəvi tərbiyə" və "mənəvi inkişaf" anlayışlarına tez-tez rast gəlinir. Bu anlayışlar qırılmaz tellərlə, sıx surətdə bir-biri ilə bağlıdır. Mənbələrdə göstərildiyi kimi, mənəvi inkişaf mənəvi tərbiyənin son nəticəsi olaraq yaranır və şəxsiyyətin, o cümlədən yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsinin göstəricisi kimi çıxış edir.

Mənəvi tərbiyə dedikdə, şəxsiyyətin, o cümlədən yeniyetmənin şüur və düşüncəsinə, hisslərinə, davranışına məqsədyönlü, sistemli və fasiləsiz təsir etməklə vətəndaşlıq və fəal həyat mövqeyinin, müsbət əxlaqi keyfiyyətlərin, milli mənlik şüurunun, vətənpərvərliyin formalaşdırılması anlaşılmalıdır. Bütün bunlar da mənəvi inkişafa yol açır.

Vətənpərvərlik, mübarizlik, ideya inamı və əqidəliliyi, qəhrəmanlıq, Vətənin müdafiəsinə hər an hazır olmaq, ölkəmizin, cəmiyyətin, respublika vətəndaşlarının səadəti, firavanlığı, rahatlığı uğrunda səy göstərmək, nümunəvi rəftar və davranış təcrübəsi qazanmaq fəal həyat və vətəndaşlıq yetkinliyinə sahib olmaq mənəvi inkişafın yüksək səviyyəsindən xəbər verir.

Azərbaycan və Türkiyə Respublikalarında nəşr olunan pedaqoji ədəbiyyata istinadən deyə bilərik ki, mənəvi tərbiyə həm mənəvi şüurun və mənəvi hisslərin, mənəvi təsəvvür və anlayışların, həm də mənəvi davranış təcrübəsinin və mənəvi münasibətlərin təşəkkülünə imkan verir. Vətənpər-

vərlik, cəmiyyətdən ötrü müstəsna dərəcə zəruri sayıla bilən yüksək keyfiyyətlər mənəvi tərbiyə sahəsində görülən tədbirlərdə öz inkişafını tapır. Eyni zamanda, düzlük və doğruçuluq, böyüyün hörmət və nüfuzunun gözlənilməsi, təvazökarlıq, qorxmazlıq, qəhrəmanlıq, mərdlik, igidlik, cəsurluq, sadəlik, yoldaşlıq və dostluq, milli mənlik, şərəf və ləyaqət hissinin, fəal həyat və vətəndaşlıq mövqeyinin formalaşdırılması və s. də *mənəvi tərbiyənin vəzifələrinə* aiddir.

Mənəvi keyfiyyətlərə sahib olmaq, mənəvi davranış təcrübəsinə, gözəl rəftara yiyələnmək yeniyetmələrin cəmiyyətdə, ailədə və məktəbdə hörmət və nüfuzunu artırır, onlara həyatda fəal həyat və vətəndaşlıq mövqeyi qazandırır.

Fəslin ***"Yeniyetmələrin mənəvi tərbiyəsi üzrə istifadə olunan prinsip və metodlar"*** adlanan üçüncü yarımfəslində deyilir: Tərbiyənin çox mühüm tərkib hissəsi olduğundan tərbiyənin prinsipləri eyni zamanda mənəvi tərbiyə üçün də səciyyəvidir. Başqa sözlə, mənəvi tərbiyə işinin təşkilatçıları həmin prinsipləri əldə rəhbər tuta bilərlər.

İddiaçının fikrincə, təhsil müəssisəsində, ailədə və ictimai yerlərdə tərbiyə (o cümlədən mənəvi tərbiyə) işinin təşkilinin məzmununu, metod və formalarını müəyyən edən rəhbər tələb və müddəalar tərbiyənin prinsipləri kimi nəzərdən keçirilə bilər. Müəllimlər, valideynlər və məktəbdənkənar müəssisələrin tərbiyəçiləri öz fəaliyyətlərində bu tələbləri əsaslanaraq, yeniyetmələrin mənəvi tərbiyəsi sahəsində yüksək göstəricilərə nail olurlar.

Mənəvi tərbiyənin humanist yönümdə təşkili prinsipinin tələbinə görə aşağıdakılar diqqət mərkəzində dayanır: 1. Yeniyetmənin hüquq və azadlıqlarına hörmətli münasibət; 2. Yeniyetmənin şəxsiyyətinə humanist münasibət; 3. Yeniyetmənin öz-özülə qalmaq hüququna hörmətlə yanaşmaq; 4. Yeniyetməyə gücüçatan və ağıllı tələblərin verilməsi. 5. Onunla aparılan tərbiyə işinin məqsədinin yeniyetməyə bildirilməsi; 6. Yeniyetmə verilən tələbləri yerinə yetirməkdən imtina etdikdə belə onun rəyinin nəzərə alınması; 7. Bu və ya digər səbəbdən (humanitar, dini və b.) onun (tərbiyəolunanın) əqidəsinə zidd olan keyfiyyətlərin formalaşdırılmasından yeniyetmənin imtina etmək hüququnun nəzərə alınması. 8. Verilən tələblərin könüllü yerinə yetirilməsinin vacibliyi; 9. Yeniyetmə şəxsiyyətinin şərəf və ləyaqətini alçaldan cismani və digər cəzalara yol verməmək və s.

Yeniyetmələrə fərdi yanaşmaq üçün müəllim, eləcə də valideyn onların qavrayışının, təfəkkürünün, yaddaşının, nitqinin, xarakterinin, temperamentinin, iradəsinin xüsusiyyətlərini nəzərə almalıdır.

Bəzən belə güman edirlər ki, fərdi yanaşma dedikdə bu, yalnız "çətin", qanun pozan yeniyetmələrə aid bir məsələdir. "Çətin", qanun pozan yeniyetmələr həqiqətən xüsusi diqqət tələb edirlər. Lakin "uğurlu" yeniyet-

mələr də diqqətdən kənarda qalmamalıdırlar. Bu "uğurlu"luğun arxasında xoşagəlməz niyyətlər, yönəlmələr, motivlər və əməllər dayana bilər.

Tədqiqat zamanı eksperimentə cəlb edilmiş siniflərin şagirdləri ilə aparılan işlərdə mənəvi tərbiyənin aşağıdakı prinsiplərindən fəal şəkildə istifadə olunurdu:

1. Mənəvi tərbiyədə məqsəd aydınlığı prinsipi. 2. Tərbiyə işinin həyatla və ölkəmizin dinc quruculuq işləri ilə bağlılığı prinsipi. 3. Yeniyetmələrin yaş xüsusiyyətlərinin hesaba alınması prinsipi. 4. Fərdi xüsusiyyətlərin hesaba alınması prinsipi. 5. Mənəvi tərbiyə prosesində sistemliliyin, ardıcıllığın və fasiləsizliyin gözlənilməsi prinsipi. 6. Mənəvi tərbiyənin zəruri prinsiplərindən biri də nikbinlik prinsipidir. 7. Yeniyetmənin şəxsiyyətinə hörmət etməklə ona verilən düzgün tələbkarlığın uyğunlaşdırılması (mənəvi tərbiyədə hörmət və tələbkarlıq) prinsipi. 8. Tələblərdə vahidliyin gözlənilməsi prinsipidir.

Mənəvi tərbiyə üzrə yeniyetmələrlə iş apararkən müəyyən prinsiplər əsas götürülməklə yanaşı, eyni zamanda müvafiq metodlar da tətbiq olunur. Həmin metodlar mənəvi tərbiyəliliyin səviyyəsini artırır, keyfiyyətini yüksəldir. Lakin mənəvi tərbiyə metodlarından səmərəli istifadə olunmalı, onların növbələşməsi düzgün təşkil edilməlidir. Təbii ki, mənəvi tərbiyə metodlarının tətbiqi müəllimdən də, valideyndən də səriştəlilik tələb olunur. Mənəvi tərbiyənin metodları tərbiyə prosesinin məqsəd və vəzifələri, məzmunu, yeniyetmələrin imkanları nəzərə alınmaqla müəyyənləşdirilir.

Fikrimizcə, tərbiyənin metodları deyiləndə, mənəvi tərbiyənin məqsədini reallaşdırmaq, onun vəzifələrini həyata keçirmək üçün müəllimin, valideynin və bu sahədə iş aparan digər şəxslərin faydalandığı yollar və vasitələr, üsullar sistemi anlaşıla bilər.

Fəslin dördüncü yarımfəsli ***"Yeniyetmələrin mənəvi tərbiyəliliyinin diaqnostikası meyarları"*** adlanır. Yeniyetmələrin mənəvi tərbiyəliliyinin diaqnostikasının səmərəli aparılması bu prosesin meyarlarını düzgün müəyyənləşdirməkdən xeyli dərəcədə asılıdır. Meyarlar qabaqcadan planlaşdırılır və pedaqoji diaqnostika zamanı onlar gözlənilir.

"Meyar" anlayışı bir növ əsasında qiymətləndirilmə aparılan ölçü kimi başa düşülə bilər. Ölçü, norma rolunu oynayan meyarlar tədqiq olunan, öyrənilən obyektin yüksək, təkmil səviyyəsini ifadə edir. Meyarlara əsasən fəaliyyət göstərən müəllimin və b.-nın işində konkretlik mühüm yer tutmalıdır. Konkretlik göstəricilərin tam düzgün olmasını şərtləndirir. Başlıca göstəricilərdən biri diaqnostikanı bilməkdir. Bu, ekspertin müşahidə, uçot və qeydlər aparmaq işini asanlaşdırır.

Meyarlar bir növ ölçü rolunu oynayır. Pedaqoji ədəbiyyatda, adətən meyarların iki növünə müraciət edilir: kəmiyyət və keyfiyyət. Kəmiyyət

meyarlarına əsasən qiymətləndirmə interval (ara, fasilə) şkalası üzrə aparılır. Kəmiyyət meyarlarını bilavasitə ölçmə mümkün deyil, lakin onlar pedaqoji prosesi, o cümlədən mənəvi tərbiyə prosesinin məzmununu ekspert metodları ilə təhlil etməyə şərait yaradır. Kəmiyyət meyarlarından, bir qayda olaraq, pedaqoji fəaliyyətin, yeniyetmələrin mənəvi tərbiyəsinin təşkilinin nəticələrini qiymətləndirilməsi məqsədi ilə istifadə edilir. Bu meyarlara daxildir: qazanılmış biliklərin həcmi; mənəvi keyfiyyətlərə, davranış mədəniyyətinə, əxlaq qaydalarına, onların məzmununa və əhəmiyyətinə dair biliklər; proqram materialının mənimsənilməsinin möhkəmliyi əmsalları və s.

Keyfiyyət meyarlarına aiddir: fənlər üzrə mövzularla bağlı biliklərin səviyyəsi; proqram materialının şüurlu öyrənilmə səviyyəsi; proqram materialına yiyələnmənin səviyyəsi; praktik işlərin yerinə yetirilməsi zamanı qazanılmış biliklərin tətbiqi səviyyəsi; idrak fəallığının və yaradıcı müstəqilliyinin səviyyəsi; materialı şüurlu mənimsəməsi səviyyəsi; mədəni davranışa, əxlaq normalarına, etik qaydalara aid aldığı məlumatların və biliklərin onun davranış tərzində ifadə olunma səviyyəsi; mənəvi keyfiyyətlərinin inkişafı səviyyəsi və s.

Diaqnostik meyarlara və diaqnostik metodikaya əsasən, sinif rəhbəri, müəllim və b. pedaqoji prosesin vəziyyətinə dair zəruri məlumata yiyələnirlər. Onlar təlimin keyfiyyətini, yaxud tərbiyənin, o cümlədən yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsini öyrənir, bu məlumatları təhlil süzgəcindən keçirir, qiymətləndirir, istər pedaqoji prosesin, istərsə də yeniyetmələrin inkişafını proqnozlaşdırır. Lazım gəldikdə təshih işləri aparır.

Pedaqoji diaqnostika zamanı ekspertizanın meyarları kimi aşağıdakılar götürülə bilər: ümumi meyarlar, xüsusi meyarlar, istisna təşkil edən, tipik olmayan).

- ümumi meyarlar - təhsilin təşkilinin müxtəlif səviyyələrində inkişafın və aparılan islahatların əsas ənənələri, məqsədləri və istiqamətləri baxımından nəzərdə tutulan obyektin (məsələn, yeniyetmələrin mənəvi tərbiyəliliyinin səviyyəsinin və s.) əhəmiyyətini qiymətləndirməyə imkan verir;

- xüsusi meyarlar - müəllifin səriştəliliyinin, tamlığı, dolğunluğu, normativlərə və və mövcud tələblərə uyğunluğu baxımından layihənin məzmunluluğunu qiymətləndirməyə imkan verir;

- xüsusi, istisna təşkil edən (tipik olmayan) meyarlar - həyata keçirilməsinin mümkünlüyü və təcrübə üçün reallığı baxımından layihənin əsaslandırılması səviyyəsinin qiymətləndirilməsinə imkan verir.

İstər təlim prosesində, istərsə də yeniyetmələrin asudə vaxtlarında onlarla həyata keçirilən tədbirlərdə məqsədyönlü, planauyğun və sistemli fəaliyyət göstərən müəllim, sinif rəhbəri, gənclər təşkilatının nümayəndəsi, uşaq birliyi rəhbəri, kitabxanaçı, tərbiyə işləri üzrə direktor müavini hök-

mən öz səylərinin nəticələri ilə də maraqlanır, diaqnostika, monitorinq və qiymətləndirmə aparırlar. Bu üç anlayış - "diaqnostika", "monitorinq" və "qiymətləndirmə" bir-birilə sıx surətdə bağlı olan anlayışlardır. Onlar bir-birini təkrar etmir, bir-birinin eyni deyil, hərəsinin öz yeri, öz dəyəri, əhəmiyyəti və öz vəzifəsi vardır.

Pedaqoji diaqnostika zamanı işin metodikasının etibarlılığı, psixoloji-pedaqoji nəticələrin obyektivliyi təmin olunmalıdır. Təhsil və tərbiyə, o cümlədən yeniyetmələrin mənəvi tərbiyə prosesinin, onların mənəvi tərbiyəliliyinin səviyyəsini qiymətləndirmək üçün meyarların, həmçinin təhsil və mənəvi tərbiyə proseslərinin səmərəliliyinin və keyfiyyətinin qiymətləndirilməsi göstəricilərinin işlənib hazırlanması və əsaslandırılması vacibdir. Meyar elə bir anlayışdır ki, onun əsasında qiymətləndirmə həyata keçir, bu və ya digər fəaliyyətin səmərəliliyi öyrənilir, təsnifat aparılır. Yeniyetmələrin mənəvi tərbiyəliliyi səviyyəsinin diaqnostikası məqsədyönlü, planauyğun və sistemli təşkil olunmalıdır.

Dissertasiyanın ikinci fəsli "**Yeniyetmələrin mənəvi tərbiyəliliyi diaqnostikasının təcrübi məsələləri**" adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. Fəslin "***Təlim prosesində yeniyetmələrin mənəvi tərbiyəsi üzrə işin təşkili və mənəvi tərbiyəliliyinin diaqnostikası***" adlanan birinci yarımfəslində V-IX siniflərdə Azərbaycan tarixi, ədəbiyyat, İnsan və cəmiyyət fənlərinin tədrisi prosesində yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsinin yüksəldilməsi məsələləri diqqət mərkəzinə gətirilir. Proqram və dərsliklər təhlil olunur, dərslərdən nümunələr verilir. Bu barədə daha ətraflı dissertasiyadan məlumat almaq mümkündür.

Yeniyetmələrə müsbət mənəvi keyfiyyətlərin aşılanmasında düzlüyün, doğruçuluğun, sadəlik və təvazökarlığın, böyüyə hörmətin, mərdliyin, qəhrəmanlığın və igidliyin, şərəf və ləyaqətin, milli iftixar hissinin, dövlətçiliyə sədaqətin, nikah-ailə münasibətlərinə ciddi münasibətin, yoldaşlıq və dostluğun, vətənpərvərliyin, beynəlmiləlçiliyin, cəsarətin, mübarizliyin, tənqidə dözməyin və özünütənqidin, özünütərbiyənin, xeyirxahlıq və yaxşılığın, səbir və hövsələnin, başqalarının mövqeyinə hörmətlə yanaşmağı, humanizmin, mübarizliyin, nümunəvi davranış və rəftar tərzinin inkişaf etdirilməsində V-IX siniflərdə tədris olunan ədəbiyyat dərsləri qüdrətli vasitə kimi çıxış edir.

II fəslin ikinci yarımfəsli ***"Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin mənəvi tərbiyəsi üzrə işin təşkili və mənəvi tərbiyəliliyinin diaqnostikası"*** adlanır.

Sinifdənxaric iş şagirdlərin, o cümlədən yeniyetmələrin asudə vaxtının səmərəli təşkili vasitələrindəndir. Məktəblilərinin mənəvi keyfiyyətlə-

rinin inkişaf etdirilməsində təlim prosesi ilə yanaşı sinifdənxaric tədbirlər mühüm əhəmiyyətə malikdir.
Bir sıra hallarda məktəblilər tədbirlərdə passiv, dinləyici, tamaşaçı, müşahidəçi kimi iştirak edirlər. Eksperimentdə iştirak edən sinif rəhbərləri, fənn müəllimləri və digər şəxslər belə mövqe tutmur, onların müstəqilliyinə, təşkilatçılıq qabiliyyətlərini nümayiş etdirmələrinə şərait yaradırdılar. Eksperimentə cəlb edilmiş məktəblərdə sinifdənxaric işin təşkili zamanı V-IX sinif şagirdlərin könüllülüyü, yaradıcı fəallığı, müstəqilliyi və təşəbbüskarlığı əsas götürülür, dissertasiyada nəzərdən keçirdiyimiz problem baxımından sinifdənxaric işin kollektiv, qrup halında və fərdi formalarına müraciət olunurdu.

Ümumtəhsil məktəblərin eksperimentə cəlb edilmiş siniflərində yeniyetmələrlə mənəvi tərbiyə üzrə işlərin aparılması zamanı təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri diqqət mərkəzində idi və onlara ciddi əməl olunurdu. Nəticədə V-IX sinif şagirdlərinin mənəvi tərbiyəlilik səviyyəsi yüksəlirdi.

Fəslin ***“Şagirdlərin mənəvi tərbiyəliliyinin pedaqoji diaqnostikası. Pedaqoji eksperimentin təşkili, aparılması, nəticələri”*** adlanan üçüncü yarımfəslində diqqət aşağıdakı məsələlərə yönəlir: Ümumtəhsil məktəblərində şagirdlər, o cümlədən yeniyetmələr arasında mənəvi tərbiyə, mənəvi tərbiyənin ayrı-ayrı tərkib hissələri (vətənpərvərlik tərbiyəsi, böyüyə hörmət tərbiyəsi, yoldaşlıq və dostluq tərbiyəsi, şərəf və ləyaqət tərbiyəsi və s.) üzrə işlər aparılsa da, bir sıra hallarda, bu işin diaqnostikası ya həyata keçirilmir, yaxud da bu sahədə görülən tədbirlər səthi xarakter daşıyır. Həm də diaqnostika monitorinq və qiymətləndirmə əsasında aparılmalıdır.

Hazırkı dövrdə - yeni pedaqoji təfəkkür şəraitində tərbiyə prosesinin, xüsusən onun mühüm tərkib hissəsi olan mənəvi tərbiyə işinin bitkin metodikasının hazırlanmasına ehtiyac vardır. Həmin metodika müəllimin fəaliyyətinin müsbət və qüsurlu tərəflərini əyani şəkildə ona göstərə bilməli, bu işin daha səmərəli və zəif cəhətlərini, təhsilalanlara təsirinin keyfiyyətini açmalıdır.

Mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi və diaqnostikası üzrə iş V-IX siniflərdə, daha sonra X-XI siniflərdə davam etdirilməlidir. Mənəvi tərbiyə üzrə işlərin səmərəliliyinə nail olmaq üçün təhsilalanları maraqlı, məzmunlu, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici tədbirlərlə əhatə etmək lazımdır.

Mənəvi tərbiyə üzrə işlə məşğul olub bu işin diaqnostikasını aparmamaq fəaliyyətin şüurlu və məqsədyönlü həyata keçirildiyini şübhə altında qoyur. Belə çıxır ki, müəllim bu içləri ona görə görür ki, bunu ondan tələb edirlər, yaxud bu bir pedaqoji peşə sahibi, sinif rəhbəri kimi onun vəzifəsi-

nə daxildir. Deməli, əslində o, konkret nəticə almağı qarşısına məqsəd qoymayaraq, vaxt və qüvvə sərf etmişdir.

Tədqiqat zamanı biz şagirdlərin mənəvi tərbiyəlilik səviyyəsini öyrənərkən mənəvi özünüqiymətləndirmənin diaqnostikası; davranış etikasının diaqnostikası; mənəvi motivasiyanın diaqnostikası; həyati dəyərlərə münasibətin diaqnostikası metodikalarının imkanlarından faydalanırdıq. Bu məqsədlə onlara müxtəlif tipli suallarla müraciət edirdik.

V-IX sinif şagirdlərinin mənəvi tərbiyəlilik səviyyəsinin səmərəliliyi öyrənilmişdir. Bu məqsədlə tədqiqat metodlarının, pedaqoji diaqnostikanın imkanlarına müraciət olunmuşdur. Konkret olaraq, söhbətlərdən, müşahidə və sorğudan, təhlil və tərkibdən, dərslərin dinlənilməsindən, induksiya və deduksiyadan, riyazi-statistik metodlardan, məktəblilərin yaradıcılıq məhsulları ilə tanışlıqdan və s. istifadə edildi. Yeri gəldikcə, qeydlər aparılır, müsbət və qüsurlu cəhətlər müəyyənləşdirilirdi. Məlum oldu ki, yeniyetmələrinin mənəvi tərbiyəsi sahəsində qabaqcıl məktəblər müsbət təcrübə toplamışlar. Buna fasiləsiz, planauyğun, məqsədyönlü və sistemli iş nəticəsində nail olmuşlar. Bu məktəblərin V-IX siniflərində dərslərin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici imkanları diqqət mərkəzində dayanır, mənəvi maariflənməyə və mənəvi şüurun, mənəvi düşüncənin, mənəvi təfəkkürün, mənəvi davranış tərzinin formalaşdırılmasına fikir verilir. Sinifdənxaric işin müxtəlif formalarından istifadə etməklə, yeniyetmələrdə mənəvi mədəniyyətin təşəkkülü, onların əxlaqının saflaşdırılması, mənəviyyatının zənginləşdirilməsi istiqamətində yüksək göstəricilərə nail olunur.

Tədqiqatın gedişində eksperimental siniflərin Azərbaycan tarixi, İnsan və cəmiyyət, Ədəbiyyat müəllimləri, yeniyetmələrin asudə vaxtlarında onlarla mənəvi təkmilləşmə, əxlaqi kamilliyin şərtləri, mənəvi özünütəhsil və mənəvi özünütərbiyə ürzə söhbətlər aparan, mənəvi tərbiyənin bu və ya digər tərkib hissələrinə, mənəvi inkişafa, mənəvi davranış və rəftar tərzi və etik qaydaları ilə bağlı görüşlər, tematik axşamlar, dəyirmi masalar, viktorinalar, müsabiqələr, yarışlar, şən və hazırcavablar klubunun çıxışlarını, şagird konfranslarını, kini-filmlərə, teatr və televiziya verilişlərinə baxışlar təşkil edən tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, kitabxanaçılar, gənclər təşkilatının sədri, uşaq birliyinin rəhbəri ilə məsləhətləşmələr həyata keçirilirdi.

Tədbirlərin yüksək səviyyədə təşkili, birgə əməkdaşlıq nəticəsində eksperimental siniflərdə təhsil alan yeniyetmələrdə mənəvi tərbiyəliliyə, nümunəvi davranışa, ünsiyyətə və rəftara ciddi münasibət formalaşırdı.

Azərbaycan tarixi, İnsan və cəmiyyət, Ədəbiyyat fənlərindən dərslər, sinifdənxaric tədbirlər müşahidə olunur, müəllimlər və məktəblərin pedaqo-

ji kollektivlərin digər üzvləri və yeniyetmələrlə söhbətlər aparılır, onlar sorğulara cəlb edilirdilər.

Bütün bunlar səmərəli nəticələrin əldə olunmasına şərait yaradırdı. Yeniyetmələrin mənəvi maariflənmə səviyyəsi diaqnostika vasitəsilə öyrənildi. Eksperimentin gedişində VIII-IX siniflərdə təhsil alan yeniyetmələrinin mənəvi tərbiyəlilik səviyyələr barədə də təsəvvür əldə etdik: Eksperimental və kontrol VIII-IX siniflərdə yeniyetmələrinin mənəvi tərbiyəlilik səviyyələrini əks etdirən göstəricilərlə dissertasiyada tanış olmaq mümkündür.

Eksperimentə cəlb edilmiş siniflərin müəllimləri, məktəblərin pedaqoji kollektivlərinin üzvləri ilə aparılmış məqsədyönlü, sistemli, planlı və fasiləsiz iş öz nəticəsini göstərmiş, göstəricilər kontrol sinif müəllimləri ilə müqayisədə xeyli yüksək olmuşdur.

Eksperimental V-IX siniflərdə təhsil alan yeniyetmələr dərslərdə, sinifdənxaric tədbirlərdə mənəvi keyfiyyətlərə - vətənpərvərlik, böyüyə hörmət, düzlük və doğruçuluq, sadəlik və təvazökarlıq, yoldaşlıq və dostluq, tolerantlıq, işgüzarlıq, milli və şəxsi şərəf və ləyaqət, milli mənlik şüuru, milli iftixar və s. aid maarifləndirmə işləri sorğuların gedişində onlara verilən suallara tələb olunan səviyyədə cavab vermələrinə kömək etmişdir.

Eksperiment göstərdi ki, irəli sürülən fərziyyə özünü doğrultmuş, eksperimental siniflərin şagirdlərinin mənəvi keyfiyyətlərinin səviyyəsi artmışdır.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas verir:

V-IX sinif şagirdlərinin Vətənin ləyaqətli oğul və qızları kimi böyümələrində, əxlaqca saf, mənəviyyatca zəngin olmalarında, müsbət keyfiyyətlərə və nümunəvi davranışa yiyələnmələrində ailədə və məktəbdə mənəvi tərbiyə üzrə aparılan işlər müstəsna dərəcədə böyük rol oynayır.

Yeniyetmələrdə müsbət keyfiyyətlərin aşılanması və inkişaf etdirilməsi məqsədilə mənəvi tərbiyənin prinsiplərindən, vasitələrindən yerli-yerində istifadə olunması, mənəvi tərbiyənin metodlarının və priyomlarının düzgün tətbiq edilməsi səmərəli nəticələr verir, qarşıda dayanan vəzifələrin yerinə yetirilməsini şərtləndirir.

Tədqiqat göstərdi ki, yeniyetmələrlə müxtəlif tədbirlərin təşkili, proqram materiallarının mənəvi tərbiyə imkanlarının nəzərə alınması hələ kifayət etmir, görülən işlərin kəmiyyətindən daha çox keyfiyyəti, söhbətlərin, görüşlərin, maarifləndirmə işlərinin və s. V-IX sinif şagirdlərinin hiss və duyğularına necə təsir göstərdiyini, il boyu aparılmış işlərin necə nəticələndiyini, nəyə nail olunduğunu öyrənmək başlıca məsələ kimi qarşıda dayanır. Bu mənada yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsinin diaqnostikası son dərəcə vacib hesab olunur.

Tədqiqatdan görünür ki, pedaqoji diaqnostika sistemi o zaman səmərəli olur ki, o, yeniyetmə şəxsiyyətinin vəziyyətinin bütün parametrlərini özündə ehtiva etsin və şagirdlərin mənəvi inkişafının dinamikasını diqqət mərkəzinə gətirsin.

Mənəvi tərbiyə mənəvi inama malik olmaqla mənəvi şüura, mənəvi düşüncəyə, mənəvi təfəkkürə, mənəvi maariflənməyə və mənəvi davranış normalarına yiyələnməni nəzərdə tutur. Pedaqoji diaqnostika bütün bunların reallaşmasına öz köməyini göstərir.

Tədqiqatdan görünür ki, respublikanın ümumtəhsil məktəblərində pedaqoji diaqnostikanın imkanlarından az istifadə olunur. Məktəbdə əsasən təhsilin, təlim prosesinin diaqnostikası diqqət mərkəzində dayanır, şagirdlərin tərbiyəliliyinin, o cümlədən mənəvi tərbiyəliliyinin diaqnostikasına fikir verilmir. Bu isə böyüyən nəslin, o cümlədən uşaqlıq və ilk gənclik yaş dövrü arasında körpü rolunu oynayan yeniyetməlik yaşında olan məktəblilərdə mənəvi özünütərbiyə və mənəvi özünütəhsilə tələbat yaratmır, onların mənəvi inkişafının yeni pedaqoji təfəkkürün tələbləri baxımından təmin olunmasına şərait yaratmır.

Təlim və tərbiyə motivlərinin aktuallaşmasına, yeniyetmə şəxsiyyətinin inkişaf dinamikasına lazımınca diqqət yetirilmir.

Tədqiqata cəlb edilmiş ümumtəhsil məktəbləri bu kimi deyilənləri nəzərə alaraq öz fəaliyyətlərini yenidən qurur, yeniyetmələrdə müsbət mənəvi keyfiyyətlərinin inkişafı qayğısına qalır, onların mədəni adət və vərdişlərə yiyələnmələrinə nail olurdular.

Bütün bunlar pedaqoji diaqnostikanın modelini formalaşdırmağı şərtləndirmişdir. Bu sistemə daxil idi: pedaqoji diaqnostikanın meyarları, funksiyaları, əsas vəzifələri (təşkilati, metodik, psixoloji, pedaqoji); pedaqoji diaqnostikanın mərhələləri (hazırlıq, diaqnostik, analitik, pedaqoji, təshihedici).

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. Yeni pedaqoji təfəkkürün tələblərini nəzərə alaraq, ümumtəhsil məktəbləri şagirdləri ilə sinifdənxaric tədbirlərin planlaşdırması və həyata keçirilməsinə böyük dəstək ola biləcək “Tərbiyə proqramı”nın hazırlanması, burada eyni zamanda mənəvi tərbiyə məsələlərinə geniş yer ayrılması məsləhətdir.

2. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun müvafiq şöbələrində, institut və universitetlərin pedaqogika kafedralarında ümumtəhsil məktəbləri şagirdlərinin tərbiyəliliyinin diaqnostikasına həsr olunmuş tədqiqatların davam etdirilməsi təklif olunur.

3. Şagirdlərin, o cümlədən yeniyetmələrin tərbiyəsini ( o cümlədən mənəvi tərbiyəsinin) diaqnostikasına dair vəsaitlərin, kitab və kitabçaların nəşri faydalı olardı.

4. Şagirdlərin, o cümlədən yeniyetmələrin təhsili və tərbiyəsinə həsr olunmuş respublika və beynəlxalq səviyyəli elmi-praktik konfransların təşkili və keçirilməsi təklif olunur.

Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının nəşr etdirdiyi aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Şagirdlərin mənəvi tərbiyəliliyinin səviyyəsi / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 16-17 dekabr, 2014, s. 234-235

2. Pedaqoji diaqnostikada vacib məsələ: mənəvi tərbiyəliliyin diaqnostikası / “Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı” mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan, 16-17 dekabr 2014, s. 185-186

3. Организация работы по диагностике уровня нравственной воспитанности подростков и ее результаты // Кыргыз Билим Беруу Академиясынын Кабарлары (Известия Кыргызской Академии Образования). Бишкек, 2015, № 3, с. 386-390

4. Dəyərlərin qazanılmasında və ölçülməsində müəllimlik peşəsinin rolu // Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2015, № 2, s. 124-127

5. Mənəvi tərbiyəliliyin diaqnostikası zamanı vacib bilinən məsələlər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu.Elmi Əsərlər, 2015, № 1, s. 155-159

6. Şagirdlərdə mövcud olan və qazandırılan dəyərlərin diaqnostikası // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Elmi Əsərlər, 2015, № 2, s. 67-69

7. Ümumtəhsil məktəblərinin iş sistemində mənəvi tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi // Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2015, № 3, s. 183-187

8. Yeniyetmələrin mənəvi tərbiyəliliyinin diaqnostikası meyarları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Elmi Əsərlər, 2015, № 3, s. 66-70

9. Mənəvi tərbiyə: mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, əsas istiqamətləri // Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2015, № 1, s.47-51

10. Ögrencilerin manevi egitiminin pedagojik teşhisi // Türkiye, Ağrı, Sosial bilimlər dərgisi, 2015, № 1, s. 125-132

11. Yeniyetmələrin mənəvi tərbiyəsi zamani tətbiq olunan metodlar və priyomlar // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2015, № 4, s.37-41

12. Dəyərlərin öyrədilməsinin üsul və vasitələri // Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2015, № 2, s. 238

13. Yeniyetmələrin mənəvi tərbiyəliliyinin pedaqoji diaqnostikası monitorinq və qiymətləndirmədə mühüm vasitə kimi / "Şagird nailiyyətlərinin qiymətləndiriməsi: məzmun və vasitələrin yaradılması problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 25 iyun 2016, s. 80-82

14. Pedaqoji diaqnostika yeniyetmələrin mənəvi tərbiyəlilik səviyyəsinin yüksəldilməsinə yönələn mexanizm kimi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Elmi Əsərlər, 2015, № 4, s. 112-114

**Фуат Орхан Бакышлы**

# ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ РАБОТЫ ПО ДИАГНОСТИКЕ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ПОДРОСТКОВ

## Резюме

Во введении обосновывается актуальность проблемы, степень ее разработанности, находят свое отражение объект, предмет и задачи исследования, ее гипотеза, методологические основы, научная новизна, теоретическое и практическое значение, положения, выносимые на защиту.

Первая глава называется «Теоретические основы диагностики процесса нравственного воспитания подростков». Она состоит из 4 параграфов. В параграфах данной главы отражается развитие и формирование педагогической диагностики, сущность нравственного воспитания, цели и задачи, содержание, основные тенденции; принципы и методы, используемые при работе по нравственному воспитанию подростков; рассматриваются критерии диагностики нравственной воспитанности подростков.

Вторая глава исследования называется «Практические задачи диагностики нравственной воспитанности подростков». В эту главу входят 3 параграфа: 1. Организация работы по нравственному воспитанию подростков в процессе обучения и диагностика нравственной воспитанности. 2. Организация работы по нравственному воспитанию подростков во время внеклассных мероприятий и диагностика нравственной воспитанности. 3. Диагностика уровня нравственного развития подростков. Организация педагогического эксперимента, проведение, результаты.

Диссертационная работа завершается выводами, предложениями и списком использованной литературы.

**Fuat Orhan Bakishli**

# PEDAGOGICAL BASES OF WORK ON DIAGNOSTICS OF MORAL TRAINING OF ADOLESCENTS

## Summary

The introduction proves the urgency of the problem, the degree of its elaboration, the object, the subject and tasks of the research, its hypothesis, methodological foundations, scientific novelty, theoretical and practical significance, provisions to be defended are reflected.

The first chapter is called "Theoretical bases of diagnostics of the process of moral upbringing of adolescents". It consists of 4 paragraphs. In the paragraphs of this chapter, the development and formation of pedagogical diagnostics, the essence of moral education, goals and objectives, content, main trends are reflected; principles and methods used in the work on the moral education of adolescents; examines the criteria for diagnosing the moral upbringing of adolescents.

The second chapter is called "Practical tasks of diagnosing the moral education of adolescents". This chapter includes 3 paragraphs: 1. Organization of work on the moral education of adolescents in the learning process and the diagnosis of moral upbringing. 2. Organization of work on the moral education of adolescents during extracurricular activities and the diagnosis of moral upbringing. 3. Diagnostics of the level of moral development of adolescents. Organization of pedagogical experiment, conduct, results.

The thesis ends with conclusions, suggestions and a list of used literature.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ФУАТ ОРХАН БАКЫШЛЫ**

# ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ РАБОТЫ ПО ДИАГНОСТИКЕ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ПОДРОСТКОВ

**58.04.01** – Общая педагогика, история педагогики и образования

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии по педагогике

**БАКУ - 2017**